# MALİK BENNABİNİN SİVİLİZASİYAYA *dair* DÜŞÜNCƏLƏRİNİN *sosial-intellektual əsasları*

BADRANE BENLAHCENE



THE SOCIO-INTELLECTUAL FOUNDATIONS OF
MALEK BENNABI'S APPROACH
*to* CIVILIZATION

BİFİ Müxtəsər kitablar seriyası

# **MALİK BENNABİNİN** SİVİLİZASİYAYA *dair* DÜŞÜNCƏLƏRİNİN SOSİAL-İNTELLEKTUAL ƏSASLARI

**Bedrane Binlahsin**

Beynəlxalq İslam Fikri İnstitutu

"İdrak" İctimai Birliyi

**Malik Bennabinin sivilizasiyaya dair düşüncələrinin sosial-intellektual əsasları (Azeri)**
*Bedrane Binlahsin*
*BİFİ Müxtəsər kitablar seriyası*

© "İdrak" İctimai Birliyi
və Beynəlxalq İslam Fikri İnstitutu
1443 (hicri) / 2022 (miladi)
*Paperback* ISBN: 978-9952-8445-7-3

**The Socio-Intellectual Foundations of Malek Bennabi's Approach to Civilization (Azeri)**
*Badrane Benlahcene*
*IIIT Books-in-Brief Series*

© The International Institute of Islamic Thought (IIIT)
1434AH / 2013CE
*Paperback* ISBN: 978-1-56564-596-7
IIIT
P.O. Box 669
Herndon, VA 20172, USA
www.iiit.org

Tərcüməçi: Aydan Salmanova
Redaktor: Fərid Hüseynov
Bədii və texniki tərtibat: Həsən Həsənov
"İdrak" İctimai Birliyi
Azərbaycan, Bakı ş., Mirəli Seyidov 3138,
korpus D, 1-ci mərtəbə
idrak.org.az

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur (DK-53/Q, 1 fevral 2022-ci il)

Bütün hüquqlar qorunur.

## Beynəlxalq İslam Fikri İnstitutu (BİFİ)
## Müxtəsər kitablar seriyası

Beynəlxalq İslam Fikri İnstitutu (BİFİ) öz oxucularına "Müxtəsər kitablar seriyası" adı altında qiymətli kitablar təqdim edir. Müxtəsər məzmunda nəşr edilən kitablarda orijinaldan seçilmiş və redaktə edilmiş nümunələr öz əksini tapmışdır. Kitabların dili səlis və aydındır. Əsas məqsəd oxucularda mövzuya maraq oyatmaq və onları orijinalı tədqiq etməyə yönəltməkdir.

***"Malik Bennabinin sivilizasiyaya dair düşüncələrinin sosial-intellektual əsasları"*** kitabı 2011-ci ildə nəşr edilmişdir. Samuel Hantinqtonun "Sivilizasiyalararası toqquşma" adlı essenin ilk nəşrindən sonra "sivilizasiya" və "toqquşma" ifadələri beynəlxalq sistemlə bağlı elmi dövriyyəyə daxil oldu. Görkəmli əlcəzairli mütəfəkkir və böyük müsəlman ziyalısı Malik Bennabi (1905-1973) müsəlmanların tənəzzülə uğrama səbəblərini və Qərb sivilizasiyasının nail olduğu uğurları göstərməyi qarşısına məqsəd qoymuşdur. Onun araşdırdığı əsas problem nə müqəddəs kitabımız Qurani-Kərimlə, nə də ki islam inancı ilə bağlı idi. Sözügedən problem məhz elə müsəlmanların özlərində idi.

Müəllif Bennabinin sivilizasiyaya dair fikirlərini və onun baza prinsiplərini metaanaliz metodologiyasından istifadə edərək araşdırmışdır. O, sivilizasiyanın daxili-xarici və sosial-intellektual amillər tərəfindən idarə olunduğunu və onun özü üçün ümumi düstur yarada biləcəyini düşünən Bennabi nəzəriyyəsinin daha maraqlı elementlərindən birinə diqqət çəkmişdir. Bennabiyə məxsus və dinin ən vacib katalizatorunu təşkil edən *insan+torpaq+zaman = sivilizasiya* düsturunun əhəmiyyəti müsəlmanların müasir dövrdə geri qalmalarının əksinə olaraq

qiymətləndirilmişdir. Aydın şəkildə görünən budur ki, Bennabi üçün "insan" istənilən sivilizasiya prosesində əsas qüvvəni təşkil edir. Digər iki ünsürün isə heç bir dəyəri yoxdur.

Nəticə etibarilə, Bennabinin müsəlmanların mənəvi vəziyyətlərini dəyişdirmədikləri müddətcə cəmiyyətdə heç bir vacib dəyişikliyə nail ola bilməyəcəklərinə inancı müqəddəs Qurani-Kərimin bu ayəsində öz əksini tapır: "(İnsan üçün) onu öndən və arxadan təqib edənlər (mələklər) vardır. Onu (insanı) Allahın əmri ilə qoruyurlar. Hər hansı bir qövm (toplum) öz tövrünü (nəfsində olanları) dəyişmədikcə (pozmadıqca), Allah da onun tövrünü (onda olanları, onun əhvalını) dəyişməz" (13:11).

# GİRİŞ

Bu kitab görkəmli əlcəzairli mütəfəkkir və böyük müsəlman ziyalısı Malik Bennabinin (1905-1973) yaradıcılığına, metodologiyası və fəlsəfəsinə həsr edilmişdir. Bennabi müxtəlif araşdırmaları nəticəsində Qərb mədəniyyətinin, sivilizasiyasının nailiyyətlərini və müsəlmanların tənəzzül səbəbləri kimi problemləri "Qurani-Kərim"də və islam inancında deyil, məhz elə müsəlmanlarda olduğu qənaətinə gəlmişdir. Alim düşünür ki, müstəmləkəlik təsirlərinin və sivilizasiyanı idarə edən amillərin əsl mənzərəsi müsəlman dünyasının problemlərini həll edə və yeni müsəlman intibahına yol aça bilərdi.

Əsər Bennabinin mədəniyyətlə əlaqəli fikirlərini və metanəzəriyyə metodologiyasından (MU) istifadə edərək müəyyənləşdirilmiş prinsipləri araşdırmaqla yanaşı, mövcud ədəbiyyatdan kənara çıxaraq Bennabinin sivilizasiyaya münasibətini təqdim edir və onun mahiyyətini öyrənir. Kitabda Bennabinin daxili, xarici və sosial-intellektual amillərin sivilizasiyanı idarə etdiyi və sivilizasiyanın özü üçün bdüstur formalaşdıra biləcəyi ilə bağlı düşüncələri şərh edilir.

Malik Bennabinin düşüncələrinə uyğun olaraq din *insan+torpaq+zaman = sivilizasiya* düsturunun ən vacib katalizatoru hesab edilir və bu, müsəlmanların iinkişafı üçün mühüm amildir. Bennabinin araşdırmalarında "insan" sivilizasiya prosesində təkcə əsas qüvvə kimi çıxış etmir, çünki digər iki ünsür onsuz heç bir əhəmiyyət daşımır. Buna görə də Bennabi bir müsəlmanın öz cəmiyyətini və ya sivilizasiyasını dəyişdirməzdən əvvəl öz ruh halını dəyişdirməli olduğuna inanır. Onun bu inancı

müqəddəs Qurani-Kərimin "Ər-Rəd" surəsinin 11-ci ayəsində öz təsdiqini tapır: "Hər hansı bir qövm (toplum) öz tövrünü (nəfsində olanları) dəyişmədikcə (pozmadıqca) Allah da onun tövrünü (onda olanları, onun əhvalını) dəyişməz".

Sivilizasiyaların və qlobal dəyişikliklərin öyrənilməsi akademik platformalarda həmişə əvəzedilməz rola sahib olmuşdur. Bu məqsədlə bir çox tədqiqatçı və alimlər mütərəqqi mədəniyyətlərə dair nümunələrin nəzərdən keçirilməsinə böyük əhəmiyyət vermişlər. Müsəlman dünyasının İbn Xəldundan sonra gələn ilk sosial fəlsəfə filosofu və mütəfəkkiri Bennabi cəmiyyətləri və sivilizasiyaları idarə edən və onların tarixdəki rolunu müəyyənləşdirən ümumbəşəri qanunları və əsas prinsipləri araşdırmışdır. Müsəlman sivilizasiyasının tənəzzülü ilə bağlı yaranan narahatlığı onu bu vəziyyəti araçdırmağa və həll yolları göstərməyə vadar etmişdir. O, iqtisadiyyat, siyasət və ideologiya ilə bağlı yaranan ikitirəliyi tədqiq etməyi deyil, ideyaların sivilizasiyanın böyüməsi üçün katalizator rolunu oynamasına dair həqiqəti ortaya çıxarmışdır.

İslamı və ictimai elmləri dərindən dərk edən Bennabi insan cəmiyyətlərinin fəaliyyətinə, mədəniyyət və sivilizasiya dinamikasına universal nöqteyi-nəzərdən yanaşmışdır. Onun bu yanaşması sosial-tarixi hadisələrin öyrənilməsi üçün vahid sivilizasiya çərçivəsində cəmiyyətdəki problemləri həll etmək məqsədi daşımışdır. Bennabi deyirdi: "Hər xalqın problemi onun mədəniyyətinin problemidir".

Bennabinin fəlsəfəsi islamın dərindən dərk edilməsinə yönələn, yayğın şərh üsuludur. Onun sivilizasiyanın öyrənilməsi və tarixdəki gedişatı ilə bağlı yanaşması müsəlman cəmiyyətlərində özünü göstərən sivilizasiya böhranını müəyyənləşdirməyə, habelə onun mənşəyini və həll yollarını izah etməyə kömək edir. Bütün bunlar ona tarixi, sosioloji və fəlsəfi dünyagörüşü ilə

Avropa sivilizasiyasını təhlil etməyə, ümmətin güclü və zəif tərəflərinə dair orijinal düşüncə və təhlillərlə öyrənməyə imkan verir.

Bu tədqiqatın əsl məqsədi Bennabinin sivilizasiyaya dair fikirlərinə təsir edən fərqli amillərin müəyyənləşdirilməsidir. O, vəsaitlərini, metodlarını, konsepsiyalarını və nəzəriyyələrini nəzərə alaraq gördüyü işləri təhlil edir. Buradakı yekun məqsəd isə çağdaş sivilizasiyanı və bunun ictimai həyatdakı nəticələrini anlamaq və qərar verənlər üçün sivilizasiyanın çərçivələrini müəyyənləşdirməkdir.

Bennabinin metatetik nəzəri yanaşması XIX əsrin əvvəllərindən bəri müsəlman dünyasındakı müsəlman sivilizasiyasını hərtərəfli analiz sisteminin köməyi ilə yenidən canlandırmağa yönəlik intellektual cəhdləri əks etdirir. Yaranan qaydalı yanaşma isə başlanğıcını tarix fəlsəfəsindən, ictimai elmlərdən və İbn Xəldun irsindən götürür. Bu perspektiv müsəlman dünyasındakı və digər sivilizasiyalardakı qismən çıxılmaz vəziyyətlərin təyin edilməsi üçün olduqca vacib mövqeyə sahibdir.

Bennabinin sivilizasiya konsepsiyasını daha yaxşı qiymətləndirə bilmək üçün Corc Ritzerin metanəzəriyyə yanaşmasından və sosioloji nəzəriyyənin əsasını təşkil edən sistematik tədqiqindən yararlanmaq olar.

Bu əsas düşüncə Bennabinin fikirlərinin əsas inkişaf sahəsi islam intellektual və mədəni çərçivəsinə sistematik şəkildə uyğun gəlir. Müəllif metanəzəriyyənin birinci növündən istifadə edir. Bu tədqiqatın fundamental məqsədi Bennabinin sivilizasiya nəzəriyyəsini – metanəzəriyyənin mahiyyətinin dörd meyarını istifadə etməklə daha yaxşı başa düşməkdir. Digər məqsəd isə mövcud nəzəriyyəni daha dərindən dərk etmək üçündür.

Xarici-sosial meyar daha böyük cəmiyyət ilə müxtəlif qurumlar arasındakı təsirini ortaya çıxarmaq üçün makro səviyyəyə keçid edir. Bennabi ilə bu meyar xarici-sosial faktorlar yanaşmasının formalaşdırılması və inkişafı arasındakı əlaqəyə diqqət yetirir.

Daxili intellektual meyar ənənəvi olaraq sivilizasiyanın öyrənilməsinə, intellektual və ya idrak məsələlərinə yönəlmişdir. Bunların əsas koqnitiv paradiqmalarına düşüncə məktəblərini, paradiqma dəyişikliklərini və meteoroloji vasitələrin inkişafını müəyyən etmək cəhdləri daxildir. Xarici-intellektual meyar sivilizasiyanın öyrənilməsi üçün fikir, vasitə, konsepsiya və nəzəriyyə kimi digər akademik məsələlərə yönəlir. Bennabinin nümunəsində bu meyar "Quran"ın, müsəlman dünyasındakı dini düşüncənin, fəlsəfənin, psixologiyanın, təbiət elmlərinin və sivilizasiya tədqiqatları sahəsindən kənar xaricindəki digər intellektual fəaliyyətlərin və dominant paradiqmanın təsirlərinini əhatə edir.

Metanəzəriyyə mövcud nəzəriyyələri başa düşmək, qiymətləndirmək, tənqid etmək və təkmilləşdirmək üçün sistemli üsullar təqdim edir. Buna görə də metanəzəriyyəçilər sosioloji nəzəriyyələri ətraflı, müqayisəli və sistematik şəkildə öyrənirlər. Metanəzəriyyə mövcud nəzəriyyələrin daha adekvat qiymətləndirilməsinə və tənqidi analizinə imkan verir.

Bu araşdırmanın müqayisəli metodu metanəzəriyyədən Bennabinin sivilizasiyaya dair fikirlərini anlamaq və onun yanaşması ilə İbn Xəldun və başqalarının müqayisəsini aparmaq üçün istifadə edir. Bu tədqiqat işində tarixi, müqayisəli və məzmun təhlili birləşdirilir və qarışıq metodlar tətbiq edilir. Müəllifin əsas qayəsi Bennabinin yanaşması ilə digərləri arasındakı fərqli və oxşar cəhətləri müqayisə əsasında öyrənmək və müəyyənləşdirməkdən ibarətdir. Məzmun təhlili metodu Bennabinin ifadələrini başa düşmək, düşüncələrinin əsas strukturunu açmaq

və onun anlayışlarını metanəzəriyyəyə əsaslanan dərin anlayış sistemi olaraq görməyə xidmət edir. Müqayisə zamanı Bennabinin anlayışlarına və fərziyyələrinə müraciət edilir.

Bu kitabda Bennabinin baxış prizmasını və sivilizasiyaya yanaşmasını təhlil etmək üçün onun qiymətli və orijinal əsərlərindən istifadə edilmişdir. Bennabinin orijinal əsərləri, sosiologiya və onun müxtəlif sahələri, fəlsəfi yazıları, tarix, antropologiya və digər ictimai elmlərlə bağlı yazıları *"Sivilizasiyanın problemləri" və ya "Muşkilat əl-həzarət"* kitabı adı altında nəşr edilmişdir. Müəllif digər əsərlərdən ikinci dərəcəli mənbə kimi istifadə etmişdir.

## I Fəsil
## **Sivilizasiya: anlayışlar və yanaşmalar**

Disiplinlərarası yanaşma baş verən hadisələrin bütün aspektlərini əhatə etdiyinə görə sivilizasiyada səmərəli metod hesab edilir. Tarix boyunca "sivilizasiya" anlayışının inkişafı və problemlərə yanaşmaların araşdırılması sivilizasiya tədqiqatları sahəsində mövcud dominant paradiqmaların və məktəblərin müəyyən edilməsində böyük rol oynamışdır.

Sivilizasiya anlayışının müxtəlif mədəniyyətlərdəki fərqli mədəni və dilçilik ənənələrindən necə törədiyini müəyyən etmək Qərb və müsəlman ənənələrində olduqca qəliz proses hesab edilir. Sivilizasiyanın müxtəlif sahələrinə verilən fərqli) təriflər ətrafında polemika aparmaq da olduqca çətin məsələdir. Lakin əksər tədqiqatçılar sivilizasiyaların ən iri mədəni vahidlər olduğuna dair mübahisələrdə həmfikirdirlər. Sivilizasiyanı tarix və inkişaf kontekstinə yerləşdirməyi bacaran Hantinqton, habelə İbn Xəldun, Toynbi, Bennabi və digər sivilizasiya alimləri dinlə mədəniyyəti eyni platformada birləşdirmişlər.

Aləmlərə rəhmət olaraq göndərilən həzrət Məhəmməd (s.a.v) ərəb cəmiyyətində mövcud sosial münasibətləri fərqli sosial təbəqələr və etnik qrupları özündə birləşdirən islam mədəniyyətinə çevirməyi bacarmışdır. Yeni cəmiyyətin və sivilizasiyanın qurucusu Məhəmməd peyğəmbər köçəri, tayfa mədəniyyətini şəhər həyatı və inkişafı ilə əvəz etməli olduğunu yaxşı başa düşürdü. Mədinə şəhəri isə sivilizasiyanı dəyişdirən əsas faktorlardan hesab edilirdi.

"Sivilizasiya" termini ilk dəfə XIV əsrdə İbn Xəldunun yazılarında "Müsəlman mədəni ənənələri" adı altında ortaya çıxmışdır. O, Qərbdə mövcud "sivilizasiya" terminin̈ə qarşılıq olaraq "mədəniyyət" və "tərəqqi" sözlərini işlətmişdir. İbn Xəldun sivilizasiyanı insanların birlikdə yaşadıqları və məskunlaşdıqları məkan kimi təsvir edirdi. Əlbəttə, buradan da belə nəticə ortaya çıxır ki, insanın inkişafı prosesində, hadisələrin dinamik xarakterinin əsasında onun konsepsiyası dayanır.

Sivilizasiya anlayışı XIX əsrin sonlarına yaxın islam dirçəlişi də daxil olmaqla müasir Avropa və müsəlman ziyalıları arasında daha da inkişaf edirdi. Mədəniyyət anlayışı ərəb dünyasında elmi və intellektual mühit arasında get-gedə şöhrət qazanırdı. Bennabi də bunun ilk təşəbbüsçülərindən idi. Bundan başqa, müsəlman dünyasında "sivilizasiya" sözünün əvəzinə "mədəniyyət" ifadəsi və onun törəmələri geniş şəkildə yayılmışdır.

Müsəlman və Qərb perspektivləri sivilizasiyanın sadə qaydaları ilə üst-üstə düşürdü. Onlar şəhərlərdə məskunlaşma, nizam-intizam və ya təşkilatlanma, eləcə də oturaq həyat və s. kimi ideyalar sarıdan həmfikir idilər. Müxtəlif dillərdə sivilizasiya anlayışı da şəhər cəmiyyəti, hökumət, savadlılıq dərəcəsi, insanların ətraf mühitini və həyatlarını dəyişdirmə qabiliyyəti, xüsusi funksiyalar, sosial əlaqələr şəbəkəsi, inanc sistemi kimi söz birləşmələrinin ehtiva etdiyi mənalardan qaynaqlanırdı.

Sivilizasiyaların əsas xüsusiyyətləri haqqında həmfikir olsaq da, burada perspektiv, metodologiya, diqqət və konsepsiyalar arasındakı kiçik fərqləri gözardı etmək olmaz. Antropologiya və sosiologiya paradiqmalarında fəlsəfə, tarix və sosial elmlər müxtəlif aspektlərdən analiz edilir. Buradakı görünüş isə, ümumiyyətlə, sivilizasiya məsələsini və Bennabinin anlayışını dərk etmək üçün qayda müəyyənləşdirir.

Tarix fəlsəfəsi hadisələrə rasional izahlar vermək zərurətindən yaranmışdır. Buna görə də tarix keçmiş hərəkətləri, hadisələri və situasiyaları araşdıran "birinci dərəcəli" tədqiqat mənbəyi olsa da, tarix fəlsəfəsi "ikinci dərəcəli" araşdırmadır. Daha aydın şəkildə desək, bu, mövzuların dərindən analiz edilməsidir. Həmçinin hadisələr, hərəkətlər və situasiyalarla birbaşa əlaqəli olmayan "meta" araşdırma olaraq qəbul edilə bilər. Tarix fəlsəfəçiləri tarixin gedişatı haqqında hərtərəfli fikirlər irəli sürürlər.

Tarixçilər keçmişi, cəmiyyətin nə üçün və hansı səbəblə dəyişdiyini, qəhrəmanların tarixdəki rolunu və tarixi hərəkətlərdə universal nümunələri təsvir etməyə çalışırlar. Bəzi düşüncə məktəbləri ilahi iradənin varlığını vurğulayır, digərləri isə tarixi prosesdə fərdin, iqtisadi gücün əhəmiyyətini və ya digər qüvvələrin rolunu qabardırlar. Tarixə mütərəqqi yanaşma ilə Platon, Herder, Hegel və bir çox digər Avropa mütəfəkkirləri zaman və tarixin yəhudi-xristian baxışlarını tarixi dövrlərin klassik anlayışı ilə birlikdə düz xətt üzrə irəliləyiş kimi qiymətləndirmişlər.

Müəyyən konseptual sxem olmadan dünya tarixini yazmağa cəhd edənlər üç yanaşmadan istifadə edirlər. Bunlara bütün mədəniyyətlərin (sivilizasiyaların) eyni inkişaf yolu keçən mədəniyyətlər və ya sivilizasiyalar seriyası (ardıcıllığı) modeli, tərəqqi modeli və bəşəriyyətin müxtəlif xalqlarının sadə paralel tarixləri daxildir. Ardıcıl model İbn Xəldun kimi böyük sivilizasiya alimlərinin əsərlərində ən qabaqcıl və aparıcı metoddur.

Tarix fəlsəfəsinin ənənəvi paradiqması və sivilizasiya ilə bağlı müxtəlif yanaşmaları ilə müqayisədə sosial elmlər paradiqması yeni yaranan anlayışdır. Antropologiya insan sivilizasiyasının və mədəniyyətinin öyrənən ilk sosial elmdir. Antropoloji ənənədə mədəniyyət ən yüksək kultroloji hadisə və ən geniş mədəni kimlikdir.

Sosioloqlar tarixə fərqli prizmadan yanaşırlar. İlk olaraq bunu vurğulamaq lazımdır ki, tarixi sosiologiya strukturlaşdırılmış dəyişiklik proseslərinin inkişaf modellərini qurmur, əksinə, tarixi hadisələrin, faktların və ya qurumların sosial tərəflərini araşdırarkən tarixə istinad edir. Bu kontekstdə sivilizasiya geniş miqyaslı əsasa, uzunmüddətli tarixi inkişaf prosesi olaraq makrososiologiyaya aid olur. Tarixçilər və filosoflar kimi makrososioloqlar da insan həyatının ən əsas dəyişmə proseslərini daha geniş analiz edərək anlaya biləcəklərinə inanırlar.

Zaman keçdikcə dövrümüzün ən aktual problemləri makrososiologiya olaraq qəbul edilir və bu probleminin həlli üçün makrososioloji nəzəriyyə və araşdırma tələb olunur. Bəzi mikrososioloji problem və inkişaf daha geniş ictimai tendensiya kontekstində başa düşülə və ya həll edilə bilməz. Makrososiologiya analiz vahidləri üzərində dayanaraq uzunmüddətli prosesləri, mədəni sistemləri, cəmiyyətləri və sivilizasiyanı təhlil etməklə geniş miqyaslı hadisələrin öyrənilməsinə öz töhfəsini verir.

Dəyişiklik sosiologiyası dəyişiklik səviyyələrini vahid dəyişənə uyğun təsnifləşdirməklə sivilizasiyanın və tarixi dəyişikliyin öyrənilməsində xüsusi rol oynamışdır və təsnifat belədir: meyar (ailə, cəmiyyət, mədəniyyət, sivilizasiya, dünya); dövr (tarixi, uzunmüddətli, qısamüddətli) və ya aspekt (mədəni, intellektual və sivilizasiya).

Empirik sosial elmlər paradiqması nəzəri və fəlsəfi suallardan yayınır. Ədəbiyyat sivilizasiyanın disiplinlərarası tədqiqatına

və onun mürəkkəbliyinin sistemli şəkildə araşdırılmasına metodoloji ehtiyac olduğunu göstərir. Müxtəlif "sivilizasiya" anlayışları bunun çoxşaxəli xarakterini və qeyri-adekvat yanaşmalarını nəzərə almağa kömək edir. Sivilizasiyanın öyrənilməsini hərtərəfli idarə etmək üçün digər yanaşmaların uğursuzluğu sivilizasiyanı müxtəlif səviyyələrdə adekvat şəkildə öyrənməyin mümkünsüzlüyünü və bunun ancaq qlobal perspektivdə konseptləşdirilməli olduğunu göstərir.

## II Fəsil
## Bennabinin sivilizasiyaya dair fikirlərində fundamental anlayışlar

Bennabi meydana gələn böhranın səbəblərinə göz yumduğu və yalnız əsassız faktlara əhəmiyyət verdiyi üçün çağdaş müsəlman dünyasındakı reformist və modernist tendensiyaları tənqid etmişdir. O, müsəlman dünyasında intibahı sürətləndirmək cəhdlərinin mövcud böhrana sistemli yanaşma və həll yolu göstərmədiyini vurğulamışdır. Sözügedən problemlər "Cahiliyyə dövrü"nün müsəlman mədəniyyətindən qaynaqlanırdı. Buna görə də Bennabi tarixi prosesin müstəmləkəçiliyə yol açdığını qeyd etmişdir. Müsəlman dünyasındakı mövcud vəziyyətin əsas səbəbi isə müstəmləkə deyildi. Halbuki müstəmləkəyə çevrilmə prosesində nümayiş etdirilən zəif yönlərimiz ikinci dərəcəli faktorlardan biri idi.

Bennabinin sivilizasiyaya verdiyi təriflər bir-birindən fərqli idi. Məsələn: o, sivilizasiyanın cəmiyyətin problemlərini həll etmək məqsədilə bəzi sosial bacarıqları aktiv vəziyyətə gətirdiyi həqiqətini qəbul edir və bununla yanaşı, insan həyatındakı mənəvi və maddi cəhətlər arasındakı tarazlığı bəşəriyyətə sübut edirdi. Cəmiyyət tarix boyunca insan fəaliyyətinə haqq qazandırdığı üçün hər sivilizasiya prosesində əsas qüvvə hesab edilirdi.

Bennabi mənəvi və maddi faktorların insan cəmiyyətində tarazlıq və canlılıq yaratmaq, habelə həmrəylik və birlik formalaşdırmaq üçün gözlə görülə biləcək dərəcədə vacibliyini iddia edirdi. O, sivilizasiyanı quruluş və sosial mahiyyəti baxımından belə fərqləndirirdi: "İnsan müəyyən qrup daxilində yaşama yollarını öyrənir. Tarixi funksiyasını və öhdəliklərini yerinə yetirmək üçün insan həyatının əsasını təşkil edən sosial əlaqələr şəbəkəsinin mahiyyətini dərk edir". Bennabi üçün "sivilizasiya = insan+torpaq+zaman" düsturu sivilizasiyanın özəyini təmsil edirdi. Hər hansı sivilizasiya nümunəsinin bu əsas elementləri sivilizasiya probleminin üç fundamental kateqoriyaya ayrıldığını göstərir. Bu kateqoriyalar insan, torpaq və zamandan ibarətdir.

Bennabi insanların yaratdığı bütün cisimlərin insan, torpaq və zaman üçlüyündən qaynaqlandığına inanırdı. Hər bir cəmiyyətdəki mövcud bu üç ünsür bir cəmiyyətin sivilizasiya prosesinin əsasını təşkil edir. İnsan şəxsiyyətinin inkişafına, torpağın istismarına və zamanın düzgün şəkildə sərf edilməsinə elmi aspektdən nəzər saldıqda görürük ki, sivilizasiya insanların inkişafı üçün lazımi sosial xidmətləri və yardımları özündə ehtiva edir. Yuxarıdakı düsturda bəhs olunan "insan" sivilizasiyanın əsas cəmi və istənilən sivilizasiya prosesinin mərkəzi qüvvəsidir. Bennabi müsəlman dünyasındakı reformist hərəkatı insan faktorundan daha çox mühiti islah etməyə yönəldiyinə görə qınayır və insanlığı yenidən yaratmalı olduğumuz qənaətini dəstəkləyirdi. O deyirdi: "Sivilizasiya insanların cəmiyyətdəki rollarını dərk etmələri ilə zirvəyə çata bilər".

Bennabiyə görə, oriyentasiya anlayışı bir mədəniyyətin hərəkətindəki harmoniyanı, məqsədlərindəki birliyi və eyni mənbədən başlayaraq oxşar hədəfləri qarşıya məqsəd qoymaq tendensiyası arasındakı ziddiyyəti önləmək mahiyyəti daşıyır. O, mədəniyyəti insana sosial şəxsiyyət kimi təsir edən əsas amil və kollektiv orqan kimi görürdü. Bir sözlə, mədəniyyət sivilizasiyanın istiqamətini və tarixdəki taleyini təyin edir.

Bennabinin düsturunda din üç ünsürün sivilizasiya prosesinə istiqamətləndirilməsi üçün olduqca vacibdir. Tarix göstərir ki, bütün sivilizasiyalar dini fikirlər içərisində pöhrələnərək çiçək açmışdır. Lakin Bennabiyə görə, din insanı, torpağı və zamanı bircə layihədə birləşdirən sivilizasiya prosesinə başlamasa, heç bir sivilizasiyalaşma prosedurandan söhbət gedə bilməz. O, müasir sivilizasiyaların insan, torpaq və zamanın əsl dinamik sintezinin dini düşüncə əsaslarından qaynaqlandığı fikrini irəli sürürdü.

Bennabi istənilən hərəkətin komponentinin obyektlər, şəxslər və fikirlər adlı üç kateqoriyadan birinə aid olduğu cəmiyyətin tarixi köklərini və təbiətini müzakirə edirdi. Sintez mexanizmini bu elementlərə tətbiq etmək bütün hərəkətlərin, fəaliyyətlərin və əməllərin insanlığın cəminə, yaxud materialların, habelə vəsaitlərin toplusuna və yaxud da bütün fəaliyyətlərin arxasında dayanan fikirlərin yekununa bərabər olduğunu göstərir. Onda belə çıxır ki, sivilizasiyanın müvəffəqiyyəti insanın gördüyü bütün fəaliyyətlərin hasilinə bərabərdir.

Şəxsiyyət aləmində sivilizasiya cəmiyyətin fəaliyyəti ilə bütünləşmiş şəxsdən başlayır. Bennabinin "şəxsiyyət aləmi" müəyyən qrup arasındakı konstruktiv əlaqələrin cəmini ifadə edərək bu əlaqələrin əhəmiyyətini vurğulayır. Nəticədə, cəmiyyətin sivilizasiya prosesindəki taleyi, insanlar aləminin yaratdığı sistemdəki münasibətlərin xüsusiyyətinə və keyfiyyətinə əsaslanır.

Bennabinin qənaətlərinə əsasən, düşüncə sistemi müqəddəs, o cümlədən dünyəvi mənbələrdən götürülmüş fikirlərdən ibarətdir. Bu fikirlər cəmiyyəti müəyyən dəyərlərə, etikaya yönəldir və istiqamətləndirirlər. Müsəlman sivilizasiyasında fikirlərin hamısı "Qurani-Kərim" və islam dininə əsaslanır. Bennabi sivilizasiyanı adını tarixə həkk etdirməyə çalışan və daşlaşmış fikirlərə uyğunlaşmağa səy göstərən dinamik ideyanın bəhrəsi hesab edirdi.

Yeni yaranan fikirlər cəmiyyətə müəyyən sivilizasiyasını formalaşdırmaq üçün nümunələr təqdim edir. Bir sözlə, cəmiyyətdəki bütün insanların öz mədəniyyətini fərqləndirərək özünə rəhbər tuta biləcəyi prototip meydana gətirir. Cəmiyyətin tarixdə iz qoya bilməsi üçün fikir formalaşması olduqca vacib məsələdir. Əşyalar aləmi sivilizasiya prosesi üçün lazımi vasitələr, kanallar, təbii qaynaqları və vəsaitləri təmin edir. O, sivilizasiya prosesində cəmiyyətin mövqeyini ifadə etməklə yanaşı, cəmiyyətin maddi ehtiyaclarını da ödəyir. Əslində, Bennabi "sosial əlaqələr şəbəkəsi" olmadan bəhs olunan aləmlər arasında heç bir tarixi fəaliyyətin mövcud ola bilməyəcəyinə inanırdı. Çünki cəmiyyət və təbiətin dinamizmi, o cümlədən tarixi, sosial-mədəni sivilizasiyada baş verən bütün hadisələrlə sıx şəkildə əlaqəlidir. Yəni həmin üç ünsür arasındakı dialektik əlaqə sosial əlaqələr şəbəkəsinin mövcudluğunu ifadə edir. Buna əlavə olaraq, sosial əlaqələr şəbəkəsi olmadan üç ünsür heç işə yaramır.

Bennabi müsəlman cəmiyyətini yenidən inşa etmək, mədəniyyəti canlandırmaq və tənəzzül dövründən qalan mənfi ünsürləri təmizləmək üçün "müstəqillik sosiologiyası"na ehtiyac duyulduğunu bəyan edirdi. Bununla o, təbii şəkildə formalaşan cəmiyyətin statik cəmiyyətə, tarixi cəmiyyətin isə dinamik cəmiyyətə çevrildiyini demək istəyirdi. Bennabi bəzi xüsusiyyətlərin bütün tarixi cəmiyyət tiplərinə xas olduğu ideyasını dəstəkləyirdi. Bu da o mənaya gəlir ki, sosial əlaqələr şəbəkəsi cəmiyyətin üzvlərini əlaqələndirməklə yanaşı, cəmiyyətin xüsusi missiyası və peşəsi hesab olunan fəaliyyətləri yerinə yetirməyə istiqamətləndirir.

## III Fəsil
## **Bennabinin Sivilizasiya Hərəkatının Təfsiri**

Bennabi bəzi sivilizasiyaların dövrü xarakter daşıdığını və fərqli istiqamət götürdüyünü bildiyi üçün belə sivilizasiya dövrü-

nü "bənzər, amma müxtəlif şərtlərlə irəliləyən ədədi silsilə" kimi dəyərləndirirdi. Hər sosial qrup səciyyəvi xüsusiyyətlərini öz sivilizasiyasına aşılayır. Buna görə də hər sivilizasiya fərqli kimliyə sahibdir. Sivilizasiyalar özünəməxsus xarakteristikası ilə fərqlənsə də, onların tarixdəki ümumi nümunələri bir-birilə oxşardır.

Bennabi iddia edirdi ki, sivilizasiyanın əsas elementləri dini fikir çərçivəsində sintez edilir və beləliklə, dövretmə prosesi başlayır. Bu əsas elementlər olmadıqda isə onlar arasında mövcud əlaqə də qüvvədən düşür. Yəni hər sivilizasiya tənəzzülə uğrayana, inkişafdan qalana və bəşəriyyət üzərində öz hakimiyyətini itirənə qədər tarixdəki rolunu oynamağa davam edir. Bundan sonra tarixdə yeni sivilizasiyaların səhifələri açılır. Sivilizasiyaların bu cür bir-birini əvəz etməsi tarixin ədalətli şəkildə dövr etməsinə yol açır.

Bennabi sivilizasiya prosesində hər hansı cəmiyyətin sivilizasiyalaşmasına yol açan ünsürləri yaxından izləyəcəyini deyirdi. İlkin mərhələni başa vurmuş cəmiyyət üç mərhələdən keçir: ruh (mənəvi), ağıl (rasional) və instinkt.

Dövretmə anlayışı yaşadığımız dövrdəki mövqeyimizi təyin etməklə yanaşı, tənəzzülün səbəblərini və tərəqqi potensialını ölçərək sosial problemləri həll edə bilir. Dövr anlayışı sivilizasiyanın hərəkətini izah edə bilir. Dövretmə insanın sosial varlığını analiz etmək və anlamaq üçün də əsas vasitədir. Bennabi İbn Xəldundan ilhamlanaraq insan sivilizasiyasının müəyyən başlanğıc nöqtəsindən başladığını və qanunauyğunluq üzrə hərəkət etdiyini söyləmişdir. Son mərhələdə isə sivilizasiyanın dəyərləri başqa yerə keçid edir. Bu keçid bir dövrün mövcudluğunu göstərir.

Bennabi dövrün üç mərhələsinin yalnız bir vəziyyətdən digərinə spontan şəkildə keçid etmədiyinə, həm də bu keçidin insan və cəmiyyətdəki dərin dəyişiklikləri özündə əks etdirdiyinə

inanırdı. Yuxarıda da vurğuladığımız kimi, həmin üç faktorun tarixi sintezini yaratmaq üçün insan, torpaq və zaman ünsürlərinə ehtiyac duyulur. Bu sintez cəmiyyətin tarixi fəaliyyətinin başlanğıcı ilə üst-üstə düşdüyünü göstərir. Lakin bu mərhələdə sosial dəyərlər hələ konkret reallıq hesab edilmir.

Bütün sivilizasiyaların əsasını təşkil edən dini fikirlər mədəniyyətin çiçəklənməsi üçün toxum vəzifəsini yerinə yetirir. Daha sonra mənəvi mərhələ fərdin və cəmiyyətin həyatında özünü göstərməyə başlayır. Bu mərhələdə sosial münasibətlər şəbəkəsi sıx şəkildə əlaqələndiyi üçün natamam fərd bütünləşmiş bir fərdlə əvəz edilir. Beləliklə, fərd həyata adaptasiya olur.

Dini düşüncələr genişlənməyə başladıqca əlaqələr şəbəkəsi daha da təkmilləşir. Eyni zamanda, sivilizasiya artıq problemlərin və ehtiyacların öhdəsindən gələrək yeni nizam və standartın əsasını qoyur. Mənəvi mərhələ daha sonra cəmiyyətin inkişafı, maddi problemlərin yaranması və sivilizasiyanın genişlənməsi ilə aradan qalxır. Bununla da, sivilizasiyanı ikinci (rasional) mərhələyə keçirir. Mədəniyyət tarixdə irəliləməyə davam edərkən ağıl bütün fəaliyyətləri idarə edir. Sivilizasiya rasional mərhələyə keçdikcə cəmiyyət yaxşı inkişaf etmiş əlaqələr şəbəkəsindən faydalanır. Buna baxmayaraq, müəyyən qüsurlar da ortaya çıxır. Psixoloji baxımdan isə fərd sosial funksiyalarını yerinə yetirə bilsə də, həyati enerjisini tam şəkildə idarə edə bilmir. Cəmiyyətin qüvvə və enerjisinin bir hissəsi qeyri-aktiv hal alır və digərlərini də tənəzzülə uğradır.

Hansısa sivilizasiyanın tarix boyunca yaşanan təkamül prosesi fərdin psixologiyasında və cəmiyyətin mənəvi quruluşunda özünü əks etdirir. Bu vəziyyət fərdin davranışını tənzimləyə bilmir. Rasional qüvvələr fərdin fəaliyyətləri üzərindəki nəzarətini itirməyə başladıqca sivilizasiya instinktiv qüvvələrin mənəvi və rasional cəhətdən hakim olduğu yeni kontekstlə üzüzə qalır. Cəmiyyət postsivilizasiya mərhələsinə qədəm qoyur. Sivilizasiyanın dəyərləri isə insan, torpaq və zamanın yeni sin-

tezinə keçid edir. Üçüncü mərhələdə isə sosial əlaqələr və cəmiyyətin dini fikirləri yoxa çıxır. Hərc-mərclik və qanunsuzluq hökm sürür. Mənəviyyatın nəzarəti tədricən azaldıqca instinkt də azadlığa qovuşmuş olur.

İnstinkt tamamilə azadlığa qovuşduğu zaman fərdin taleyi onların təsiri altına düşür. Beləliklə, sivilizasiyanın üçüncü mərhələsi başlayır və artıq dini fikirlər öz sosial funksiyasını yerinə yetirmir. Nəticədə, cəmiyyət məhv olur və bir sivilizasiya da tarixin tozlu səhifələri arasında yoxa çıxır. Mənəviyyat qaynağı kəsildikdə rasional iş də dayanır.

Bennabi sivilizasiyaların dini fikirlərlə formalaşdığı və müxtəlif dövrlər şəklində özünü göstərdiyi fikrini dəstəkləyir. O, sivilizasiyanın bir mərhələdən digərinə necə keçid etdiyini üç mərhələli dövr vasitəsi ilə şərh edirdi. Sivilizasiyanın təkamülünün hər mərhələsini bilmək, habelə onun xüsusiyyətlərini dərk etmək bizə ümumi inkişaf və təkamül perspektivini bəxş edir.

Bennabinin irəli sürdüyü fikirlərə əsasən, insan cəmiyyət həyatının hər hansı nöqtəsində özünü sabit şəkildə saxlaya bilməz. Bunun əvəzinə həmin cəmiyyət inkişafın psixososial dəyərlərinə uyğun olaraq bir vəziyyətdən digərinə keçid edir. Buna görə də cəmiyyətin inkişaf səviyyəsini bilmək həmin cəmiyyətin keçdiyi mərhələni, onunla əlaqəli problemləri və nailiyyətləri müəyyən etmək üçün olduqca əhəmiyyətlidir.

Bennabi inkişaf mərhələlərini əks etdirən mənzərəyə baxdıqda bir yerin tarixi cəmiyyətlə əvəz edildiyini deyirdi. Tarix üç mərhələnin varlığını ortaya qoyur: sivilizasiyadan əvvəlki cəmiyyət, sivil cəmiyyət və postsivilizasiya cəmiyyətini. İstənilən cəmiyyət sadalanan üç xüsusi mərhələdən birində öz yerini alır. Bununla yanaşı, xüsusi dəyərlərlə də xarakterizə olunur. Bennabi sivilizasiyanın keçdiyi mərhələləri daha yaxşı başa düşmək üçün tarix, sosiologiya və psixologiya kimi elm sahələ-

rinə xüsusi diqqət yetirirdi. O, müsəlman dünyasının xüsusiyyətlərini kəşf etmək, o cümlədən cəmiyyətin tarixi keçmişini araşdırmaq üçün psixososial təfsirdən yararlanırdı.

Bennabi sivilizasiyadan əvvəlki tarixdəki fərdlərə peyğəmbərimiz həzrət Məhəmmədin dövründə yaşayan və yeni sivilizasiya dövrünə başlamağa hazır insan kimi baxırdı. Bir cəmiyyətin inkişaf etməsi üçün bəzi hərəkətverici qüvvələrə ehtiyac duyulur. Cəmiyyət sivilizasiyanın əsas elementlərinə (insan, torpaq və zaman) sahib olsa da, dini fikirlər olmadan həmin elementlər qeyri-fəal hal alır. Buradan da belə nəticəyə gəlirik ki, dini fikirlər insan, torpaq və zaman elementləri ilə dinamik şəkildə qarşılıqlı əlaqəyə girməsə, heç bir sivilizasiya formalaşmayacaq. Bununla bərabər, cəmiyyət psixososial çevrilmənin şahidi olmayacaq.

Fərdin və cəmiyyətin psixososial cəhətdən tərəqqisi sivilizasiyanın daha da inkişaf etməsinə şərait yaradır. Əslində, mülki cəmiyyət məqsədinə nail olmaq üçün özünü dəyişməyə başlayanda sivilizasiya formalaşır. Bu mərhələ cəmiyyətin öz dünyagörüşünü və mədəniyyətini zənginləşdirmək və formalaşdırmaq imkanlarını əks etdirir. İnsan sivil prosesə başlamağa hazır olduqda sosial əlaqələr şəbəkəsi stimullaşmağa başlayır. Bu kontekstdə cəmiyyət həm öz mədəniyyətini, həm də inkişaf tempini qoruya bilir. Bu mərhələdəki bütün fərdlər cəmiyyətin mühafizəsini təşkil etdiyi halda, cəmiyyət sivilizasiya funksiyasını yerinə yetirir.

Cəmiyyət postsivil mərhələyə çatanda artıq öz dinamikasını itirərək tənəzzülə uğrayır. Nəticədə, artıq dini fikir sivilizasiya dəyərləri ilə uzlaşmır və sosial münasibətlər şəbəkəsi zədələnir. Əlbəttə, bu zədələnmə tənəzzül demək deyil. Başqa mədəni toplum cəmiyyətin bu mövqeyinin qarşısına keçərək onun tənəzzül yolunu dəyişə bilər. Cəmiyyət mədəni əsasını itirdikdən sonra onun fikir aləmində hərc-mərclik baş alıb gedir. Beləliklə, sivilizasiya bir mədəniyyət nümunəsi olmaqdan

çıxır. Bennabi elm adamları arasında mərhələlər və onların xüsusiyyətləri ilə əlaqəli bəzi anlaşılmazlıqların yaşandığını vurğulayır. Mərhələlərdə müşahidə edilən qarışıqlıq cəmiyyətdə problemlərin həll yolu tapmasında çətinliyə səbəb olur.

Bennabi digər mərhələlərlə müqayisədə cəmiyyətin orijinal düşüncəsini, habelə davranış özəlliyini itirdiyi üçüncü mərhələdə müsəlman dünyasının problemlərini həll etməyə çalışır. Bunun üçün cəmiyyət üçüncü mərhələdəki insani xüsusiyyətlərdən azad yeni insan yaradaraq özünəməxsusluğu və dinamik davranışını bərpa etməlidir. Daha sonra isə zaman və torpaq vasitəsilə yeni sintez yaradılaraq dini fikirlər cəmiyyətə sirayət edilə bilər. Bennabi yaşadığımız tarixi mərhələnin tərəqqi və ya tənəzzül dövrünü yaşama səbəblərini bilmə ehtiyacını da vurğulayır. Sosial problemlər tarixi xarakter daşıyır. Yəni inkişafın müəyyən mərhələsindəki cəmiyyət üçün əlverişli ünsürlər başqa mərhələdə zərərverici xarakter daşıya bilər.

Bennabi cəmiyyətin təkamülünə psixososioloji baxımdan yanaşırdı. O, cəmiyyətin üç psixososioloji inkişaf dövrünü belə təsnifatlandırırdı: əşyaların dövrü, insanların dövrü və ideyaların dövrü. Bennabi bu mərhələlər arasındakı dialektik əlaqənin ümumi konsepsiyasını təqdim edirdi. O, üç dövrün özünəməxsus mədəni keyfiyyətlərə sahib olduğunu deyirdi.

Cəmiyyət ilk dövrdə mühakimə və qərarlarını əşyalar aləminin qoyduğu meyarlara görə formalaşdırır. Hökmlərin təbiəti və keyfiyyəti insanın əzəl ehtiyaclarından asılıdır və cisimlər aləmində bu öz əksini tapır. Bennabi iddia edirdi ki, insan cəmiyyəti əvvəlki və sonrakı dövrlərdə cisimlər aləmində yaşayır. Bugünkü müsəlman cəmiyyətində psixoloji, əxlaqi, sosial, intellektual və siyasi səviyyələrə təsir göstərir. Psixoloji və əxlaqi səviyyələrdə mədəniyyət obyektlər üzərində qurulduqda "obyekt" ən zirvədə yer alır. Bu da o deməkdir ki, mühakimə keyfiyyətdən çox, kəmiyyəti ehtiva edir. Verilənlər dəyərlərə deyil, obyektlərin miqyasına görə mühakimə olunur.

İkinci dövrdə cəmiyyət mühakimələrini insan modelinin və ya nümunəsinin standartlarına uyğun olaraq obyektlərə deyil, insan aləminə əsasən formalaşdırır. Bu dövrdə obyektlər və ideyalar aləmi şəxsiyyət aləmini müşayiət etməlidir. Bennabi "Cahiliyyə dövrü"ndə yaşayan cəmiyyəti qəbilə sərhədləri çərçivəsində yaşayan varlıqların və insanlar aləmindəki fikirlərin mərkəzləşdirilməsinin nümunəsi kimi təqdim etmişdir. Lakin indiki müsəlman cəmiyyətində nəsnələrin və fərdlərin idarəetməsi arasında əlaqə var.

Müəllif cəmiyyətin tarix boyu keçdiyi yolu göstərmək, cəmiyyətin yüksəliş və ya tənəzzül içərisində olduğunu müəyyənləşdirmək üçün sözügedən dövr anlayışının vasitə olduğuna inanır. Cəmiyyətin hərəkəti əşyalar aləminin şəxsiyyət və fikir dünyası ilə qarışdığı vahid fəaliyyət kimi qəbul edilməlidir. Yəni düşüncə və davranış baxımından cəmiyyəti digərindən fərqləndirən bir aləm həmişə digər ikisindən üstündür.

Sivilizasiyanın üç mərhələyə bölünməsi bir cəmiyyətin psixososial yetkinliyini, sivilizasiya prosesinin istiqamətini, fəaliyyətinin təşkilini və dəyərlərin tarix boyu mərhələdən mərhələyə keçməsini müəyyənləşdirmək üçün meyar vahidi olaraq istifadə edilir. Həmin mərhələlər cəmiyyətin inkişafının istənilən nöqtəsində hökm sürən və ona təsir edən sosial dəyərləri, mədəni mühiti təmsil edir. Bennabi müsəlman dünyasını yeni sivilizasiya prosesinə daxil olmaq üçün mübarizə apardığı mədəniyyətdən əvvəlki mərhələyə qoyur. O, tarixdəki dinamik sivilizasiya prosesini müfəssəl şəkildə dərk etmək üçün sivilizasiyanın hərəkətini müxtəlif səviyyəli təhlillərlə öyrənir. Onun dövr və mərhələ anlayışları bir əsasın çoxsəviyyəli təhlilidir.

Bennabi cəmiyyətin sivilizasiya prosesində inkişafının keyfiyyət və kəmiyyət baxımından qeyd edildiyini deyir və bunu cəmiyyətin tarix boyunca hansı mərhələlərdə olduğunu müəyyənləşdirmək üçün yararlanır. Hər hansı sivilizasiya prosesinin həmin üç elementin inkişafından əvvəl başladığına dair

iddiasını müdafiə edir. Şəxsiyyət aləminin formalaşması sosial münasibətlər şəbəkəsinin meydana gəlməsi üçün ilkin şərtdir. Bundan sonra şəxsiyyət aləmi dəyişir və yeni münasibətlər nizamına inteqrasiya edir. Bir sözlə, sosial əlaqələr şəbəkəsi digər aləmlərlə müqayisədə daha tez irəliləyir.

Fikir aləmi sosial münasibətlər şəbəkəsi ilə sıx şəkildə bağlı olsa da, sosial müdafiə rolunu oynayır. Cəmiyyət sosial əlaqələr şəbəkəsi olmadan yenidənqurma işlərini həyata keçirə, ideyalar aləmi isə sivilizasiyanın inkişafına və ya tənəzzülünə haqq qazandıra bilməz. Cəmiyyətin tarixi, dini fikir tərəfindən yaradılan ictimai əlaqələr şəbəkəsinin tarixindən başqa bir şey deyil.

## IV Fəsil
## **Bennabinin sivilizasiyaya dair düşüncələrinin tarixi kökləri: daxili-sosial meyar**

Ritzerin daxili sosial meyara verdiyi tərifə əsaslanan bu fəsildə bəhs olunan anlayışlar və ünsürlərin Bennabinin yanaşmasına təsirinə diqqət yetirilir. Bennabinin tərcümeyi-halı bir az qarışıqdır. Onun tərcümeyi-halı 1905-ci ildə dünyaya göz açmasından tutmuş 1939-cu ilə qədərki dövrü əhatələyir. Ömrünün geri qalan hissəsi isə məhdud mənbələrdə, öz kitablarında, çağdaşlarının əlyazmalarında və dövrünün tarixi qeydlərində öz əksini tapır.

Malik Bennabi 1905-ci ildə Əlcəzairin şərqində yaşayan yoxsul ailədə dünyaya gəlmişdir. Onun şəxsiyyətini formalaşdıran islam mühiti Əlcəzair müsəlmanlarının mədəniyyət və cəmiyyətlərinə edilən müstəmləkə təzyiqlərindən onları qorumuşdur. Nənəsinin dini hekayələri onun şəxsiyyətini formalaşdırmışdır. Bu hekayələr vasitəsilə o, xeyirxahlığın islam dəyərləri və əxlaqının zirvəsində yer aldığını öyrənmişdir. Bennabi Fransa

idarəçiliyi altında öz qohumları da daxil olmaqla bir çox yerli ailələrin Əlcəzairdən Şərqi Ərəb ölkələrindəki kollektiv köçünə şahidlik etmişdir.

Müstəmləkəçilik etirazı Əlcəzairin sosial və iqtisadi quruluşunu kəskin şəkildə dəyişdi. Ənənəvi islam mühiti tənəzzülə uğradı, yerli həyat tərzi məhv oldu. Beləliklə, cəmiyyət təhlükə ilə üz-üzə qaldı. Bununla da, Bennabi ailənin mikro səviyyəsində və cəmiyyətin makro səviyyəsindəki sosial əlaqələrin kəsb etdiyi dəyəri başa düşdü.

Təhsil və ərəb ədəbiyyatı müsəlman sivilizasiyasının tənəzzülündən sonra islam dəyərlərinin qorunmasında mühüm rol oynadı. Hekayələr, nağıllar və rəvayətlərin dildən-dilə gəzməsi məşhur mədəniyyətin qorunub saxlanılmasına kömək etdi. Məscid və mədrəsə həyatı da Bennabinin təhsilində mühüm rol oynadı. O, ərəb qrammatikasını, ədəbiyyatını, şeirini, qanunlarını və ilahiyyatını dərindən mənimsədi.

Bennabi ilk əsərində müqəddəs kitabımız Qurani-Kərimin əsas hissələrini yenidən təfsir etdi. Həmçinin o, fərqli sosial və mədəni sahələrlə bağlı nəzəri fikirlərini inkişaf etdirdi. Onun dinlə əlaqəli tezisi dinin sivilizasiya prosesindəki əhəmiyyətini təcəssüm etdirirdi. Bennabiyə görə, din insan ruhunu xarakterizə edən qanun kimi kainata həkk edilmişdi.

Malik Bennabi Fransada bəzi müsəlman mütəfəkkirləri ilə tanış oldu. Alim islamı universal perspektivlə kəşf etdi. Buna görə də Bennabi islamı din, həyat tərzi, mədəniyyət və sivilizasiya kimi qiymətləndirirdi.

Müsəlman dünyasında təhsil problemi Bennabini narahat edən əsas məsələlərdən biri idi. Çünki sərt müstəmləkə rejimində Əlcəzairdə nə səviyyə, nə metodologiya, nə də ki, vəsait var idi. İki təhsil sistemi: ənənəvi sistemin tənəzzülündə və müasir (fransız və Qərb) təhsil sisteminin irəliləməsində yaranan səbəbləri zehninə və ruhuna hopdurmuşdu.

Bunlardan birincisi dəhşətli vəziyyətdə olduğu halda, ikincisi inkişaf etməyə davam edirdi. Beləliklə, yavaş-yavaş inkişaf etmiş metodologiyalardan istifadə edildi və müstəmləkə rejiminin himayəsi altında mənimsədildi. Lakin bu rejim Bennabinin sivilizasiya anlayışına zidd idi.

Bennabi Avropa və Əlcəzairin müsəlman mühitində yaşayan insanların həyat tərzində və düşüncəsində baş verən dəyişiklikləri görüb onları bircə-bircə qeyd etdi. Bu iki kontekst onun insan təbiəti və sivilizasiya ilə bağlı anlayışlarına təsir etdi. Müsəlman ziyalı dairələrində yeni düşüncə meylləri yarandı. Əlcəzair cəmiyyətində "Alimlər" hərəkatı cəmiyyətin islahatlarına yanaşma və metod baxımından görünməmiş hadisə idi.

Bennabinin müstəmləkə idarəçiliyindəki Əlcəzair vətəndaşı olması, ikili təhsil sistemində təhsil alması və Avropa müstəmləkəçiləri ilə ünsiyyət qurması onun müstəmləkə və müstəmləkəçi haqqında düşüncələrini formalaşdırdı. Bununla bərabər, o, "müstəmləkəçilik" anlayışını bugünkü müsəlmanların psixoloji vəziyyətini təhlil etmək üçün vasitə olaraq istifadə etdi.

Bennabinin Avropa təfəkkürü haqqındakı elmi onun intellektual və siyasi şüurunu daha da inkişaf etdirdi. Bundan başqa, onun marağının mühəndislikdən fəlsəfəyə, sosial elmlərə, müsəlman islahatçı düşüncəsinə, müstəmləkəlik hərəkatına, o cümlədən Əlcəzairdə və müsəlman dünyasında yaşanan canlanmaya meyil etməsinə səbəb oldu. Əlcəzairdə baş verən "Alimlər" hərəkatının əhəmiyyətini dərk etdi. Onların islahat ideyalarını, Şimali Afrika birliyini təbliğ etməyə başladı. Bennabi onların azad və müstəqil Əlcəzair cəmiyyəti uğrunda islahatçı hərəkatına, siyasətçilərinə, sosial liderliklərinə heyran qaldı. O, həmişə elmi və mədəni fəaliyyətləri siyasi aktivlikdən daha vacib hesab edirdi.

Bennabi ziyalılarla və ənənəvi qurumlarla əlaqə yaradaraq ərəb ziyalılarını müsəlman ümmətində sivilizasiyanın yenilənməsi

və intibahı məsələlərinə diqqət yetirməyə təşviq etdi. O, 1971-ci ildə Əlcəzairdə dünyasını dəyişdi. Müsəlman mütəfəkkir öz tədqiqatlarını və əsərlərini Əlcəzairə miras qoydu.

Bennabinin metanəzəriyyə haqqında da fikirləri var idi. O, mürəkkəb məsələlərin həll edilməsində komanda işinə və özünü inkişaf etdirən müsəlman ziyalıları ilə güclü əlaqələrə inanırdı. Onun ən güclü əlaqələri "Alimlər"in təmsil etdiyi müsəlman dünyasındakı islahatçı hərəkatla idi.

Bennabinin islama sədaqəti və İbn Xəlduna duyduğu heyranlığı müsəlman ziyalılarının Qərb mədəniyyətinə qarşı aşağılıq kompleksini təhlil etməsinin qarşısını aldı. O, ziyalıların "Əl-Müvahid dövrü" ilə əlaqədar tarixdəki əhəmiyyətli missiyasını yerinə yetirə bilmədiyini deyirdi. Alimlər islam mədəniyyətinin paklığına və qorunmasına çalışmış, yeni mədəniyyətin formalaşmasına xüsusi diqqət ayırmışdılar.

Bennabi İbn Teymiyyə, İbn Xəldun və İbn Əbdülvəhhab kimi bəzi erkən müsəlman mütəfəkkirlərindən və yazıçılardan təsirlənmiş, özünü bu islahatçılar silsiləsinin yetirməsi hesab etmişdir. Digər ərəb ölkələrində yaşadığı təcrübədən sonra tədqiqatlarını başqa dini fikirləri də əhatə etmək məqsədilə genişləndirdi. Nəticədə, o, ictimai hadisələrin və dinin tarixdəki rolunun müxtəlif izahlarının da öyrənməyə başladı.

## V Fəsil
## Bennabinin sivilizasiyaya dair fikirlərinin tarixi kökləri: xarici-sosial meyar

Metateorizasiya yanaşmasına əsasən, xarici sosial amillər makro səviyyəli təhlilə üstünlük verərək obyektiv aspektləri həll edir. Burada əsas diqqət müəssisələrə və düşüncənin tarixi köklərinə verilir. Bu amillər cəmiyyətə və teorizmin inkişafına nail olmaq üçün metanəzəriyyənin əhəmiyyətini vurğulayır. Xarici-sosial

meyar nəzəriyyənin reallaşması prosesi nəticəsində cəmiyyətin fərqli təbəqələri də daxil olmaqla həmin nəzəriyyənin inkişafı ilə birbaşa və ya dolayı yolla əlaqəsi digər ictimai fəaliyyətlər arasındakı əlaqəni göstərir.

Bennabi geniş spektrli ictimai-tarixi konteksti dərk edə bilmək üçün sosiologiya elmindən faydalanaraq müstəmləkəlik və dekolonizasiya şəraitində müsəlman sivilizasiyasının problemlərini həll etməyi qarşısına məqsəd qoymuşdu. O, müstəmləkəçiliyin Qərb dünyasının sivilizasiya gündəminin bir hissəsi olduğuna inanırdı.

Qərb dünyasının antropologiya, arxeologiya və sosiologiya kimi elmləri yerli insanları sivilizasiyaya uyğunlaşdırmağa kömək edirdi. Bu cür terminlər müstəmləkə halına salınmış xalq və sivilizasiyaları ifadə etmək üçün istifadə olunurdu. Bəzən bu hal insanları fikir ayrılığına sövq edirdi. Bununla yanaşı, insanların və parçalanmış müsəlman ölkələrinin etnik və dil baxımından da parçalanmasına yol açırdı. Əlbəttə ki, sadəcə bununla kifayətlənməyib ümmətin birliyinə də xələl gətirirdi.

Müstəmləkəlikdən əvvəlki dövrdə Əlcəzair cəmiyyəti postsivilizasiya mərhələsini yaşayırdı. Sosioloji cəhətdən isə müstəmləkə dövründə yaşanan inkişafla müqayisədə Əlcəzairdə daha sabit vəziyyət hakim idi. Əlcəzair rəngarəng həyatla yanaşı, siyasi cəhətdən sabitlik, iqtisadi cəhətdən tərəqqi, mədəni yaradıcılıq, ictimai harmoniya və böyük elmə qapı açmışdı. Elm adamları təhsil və islami dəyərləri yayaraq Əlcəzairin kimliyinin və şəxsiyyətinin qorunmasına xidmət göstərirdi.

Təəssüf ki, tərəqqi və firavanlıq dövrü çox uzun sürmədi. Müstəmləkə hərəkatı Əlcəzair cəmiyyətinin gələcək nəsillərinə iz buraxan dörd əhəmiyyətli mərhələdən keçdi. “Fəth və müqavimət” mərhələsi (1830-1848) Fransanın “məhdud işğal” siyasə-

ti ilə başladı. Bu siyasət əlcəzairliləri müqavimətdən uzaqlaşdırmaq, o cümlədən xalqın sosial, siyasi, iqtisadi, mədəni və dini quruluşunu dəyişdirmək məqsədi daşıyırdı.

"İkinci müqavimət mərhələsi və müstəmləkəçi dövrü" (1847-1871) Əlcəzairi və Əlcəzair xalqını özünə tabe etdi. "Ümumi müstəmləkəçilik və yerli razılıq" mərhələsi (1871-1919) əlcəzairli müsəlmanları daha da təzyiq altına aldı. "Əlcəzair oyanış mərhələsi"ndə (1919-1962) müstəmləkəlik zirvəsinə çatdı. Daha sonra isə yerli ziyalılar və siyasətçilər arasında panislamist islahat və dirçəliş geniş yayılmağa başladı.

Nəhayət, əsrlər boyu əlcəzairlilərin şəxsiyyətini formalaşdıran islam 1920-1930-cu illərdə yenidən dirçəldi. Müstəmləkəliyin dördüncü mərhələsində yerli xalqla müstəmləkə hakimiyyəti arasındakı qarşıdurma getdikcə kəskinləşdi.

Bennabinin tədqiqatları göstərirdi ki, islam sivilizasiyasının şanlı tarixi və standartları ilə müqayisədə artıq üç əsrdir ki, Əlcəzairdə xaos vəziyyəti hökm sürür. Bu hərc-mərcliyin daxili və xarici aspektləri kolonizasiya və müstəmləkəlik dialektikasını təşkil edir. Bennabinin sözlərinə görə, müstəmləkəlik müsəlman həyatının bütün sahələrində xaosun yaranmasına təkan verir. Müstəmləkə siyasəti yürüdənlər müsəlman dünyasındakı müstəmləkəlik məqsədlərinə nail olmaq üçün cəmiyyətdə ikitirəliyə yol açaraq hər hansı sivilizasiya prosesinin başa çatmasını qarşılarına məqsəd qoyurlar.

Buna cavab olaraq isə siyasətçilərin səyləri və alimlərin dini-intellektual və siyasi müstəvidə fəaliyyəti ilə Əlcəzair milliyyətçiliyi daha da inkişaf etdirildi. Halbuki bütün bunlar Bennabinin paradiqması ilə dekolonizasiyanın iki alt paradiqması sayılan reformist və modernist düşüncələr arasındakı əlaqəni nümayiş etdirməyə xidmət edirdi.

Bennabi hesab edirdi ki, müstəmləkə və müstəmləkəlik problemlərini həll etmək üçün bütün problemlərin kökünə getmək

lazımdır və ancaq bu yolla məsələlər öz həllini tapa bilər. Belə nəticəyə gələ bilərik ki, Bennabinin sivilizasiya paradiqması sivilizasiya standartları çərçivəsində insan və ictimai dəyişikliyi təhlil edir.

## VI Fəsil
## Bennabinin sivilizasiyaya dair fikirlərinin tarixi kökləri: daxili-intellektual meyar

Bu araşdırma metateorizasiyanın üçüncü meyarını meydana gətirən daxili-intellektual faktorlardan bəhs edir. Koqnitiv amillərin öyrənilməsi sivilizasiya sahəsinə aid edilir. Xüsusilə də, müsəlman dünyasındakı problemlərin həll edilməsi Bennabinin tədqiqat sahəsində geniş yer tutur. Mövcud nəzəriyyələrin öyrənilməsi və yenilərinin inkişaf etdirilməsi üçün əsas koqnitiv paradiqmalar, fikir məktəbləri, paradiqma dəyişiklikləri və ümumi metateoroloji vasitələr müəyyən edilir.

Sivilizasiyanın öyrənilməsində iki geniş paradiqma üstünlük təşkil edir. Bunlardan birincisi tarix fəlsəfəsi, ikincisi isə ictimai elmlərdir. Bennabi sivilizasiyanın öyrənilməsini ictimai elmlərdən qaynaqlanan unikal sahə hesab edir. Buna görə də Bennabi müqəddəs "Qurani-Kərim"i və dinləri öyrənməklə həm materializmdən, həm dünyəvi bilik anlayışlarından, həm də ki, tarixi dəyişikliklərdən yaxa qurtara biləcəyimizə inanır. Burada metanəzəriyyənin daxili-intellektual meyarından istifadə edilməsi Bennabinin sivilizasiyanın öyrənilməsində dominant paradiqmalar haqqında bilik və məlumatına dəlalət edir.

Bu fəsildə məzmun təhlilindən istifadə edilir. Dominant paradiqma və müxtəlif məktəblərin təhlili Bennabinin fikirləri, terminləri, metodları və həyatı boyunca mövcud hakim düşüncələr arasında əlaqə körpüsü yaradır.

Tarix fəlsəfəsi paradiqması çərçivəsində üç məktəb sivilizasiyanın öyrənilməsini əlaqəli paradiqmalara bölür: dövri baxış, tərəqqi baxışı və bəşəriyyətin sadə baxışı. Paradiqmalar tarixi dəyişikliyin fundamental fikirlərini və sivilizasiyada baş verən tarixi dəyişikliklərdəki nümunələri öyrənərək əsas məktəbləri meydana gətirir.

XIX əsrin tarixi inkişaf məktəbi Hegel, Kont və Marks kimi qabaqcıl mütəfəkkirlərin dəstəyi ilə inkişaf edərək günü-gündən çiçəklənirdi. Bu da, öz növbəsində, Bennabinin sivilizasiya tədqiqatlarına töhfə verirdi. Hegelin dialektik metodunda tarix sivilizasiyanın inkişafı və insan azadlığının məğzi kimi təcəssüm etdirilirdi. Tarixi inkişaf məktəbinin digər aparıcı siması Marks Hegelin fikirlərini özünə ilham qaynağı hesab edirdi. Hegel ağılın dialektikasından istifadə edirdi. Marks isə iqtisadi vasitələrin dialektikasından bəhrələnirdi.

Tərəqqidən təsirlənən Kont Darvinin təkamül nəzəriyyəsini və fiziki elmlərin inkişafını insan və tarixi dəyişikliyə tətbiq etmişdi. Bu tədqiqatın əsas bəhrəsi tarixi hərəkatı, onun mərhələlərini, o cümlədən səbəblərini izah etməsi idi.

Bennabi tarixçilərin əksəriyyətinin baş verən hadisələri rasional şəkildə ört-basdır etmək əvəzinə tarixi hadisələri bir araya gətirməyə çalışdıqlarını iddia edirdi. O, hegelist ziddiyyət və yaxud dialektik anlayış ilə sosial dəyişikliklərə zəmin yaradan, ziddiyyətli səbəblərin, əslində, iqtisadi səbəblər olduğunu göstərən marksist ideya arasında əlaqə görürdü. Bennabi hegelistlərin fikirlərini dəyişikliklərin katalizatoru kimi qəbul edirdi. Lakin o, marksistləri onların dialektik təhlillərinə görə mədh edirdi. Bennabi belə deyirdi: “Marksın insan ehtiyacları nəzəriyyəsi sivilizasiyanın yaranma dinamikasını izah edə bilməz”.

Bennabi tarixi inkişaf məktəbinin tarixi deyil, daha çox nəzəri və avropamərkəzli olması üçün əlindən gələn hər şeyi edirdi. Məktəb tarixi dəyişikliyin bəzi dəyişikliklərinə diqqət yetirir və

şaxəli əsas olaraq sivilizasiyanın mürəkkəbliyinə laqeyd yanaşırdı. Bennabi İbn Xəldun və Toynbi kimi qabaqcıl alimlərin də aid olduğu ənənəvi məktəbdən təsirlənmişdi. O özünü bu yanaşmanın və metodologiyanın varisi olaraq görürdü. Məktəb tarixi dəyişikliklərdəki nümunələri ayırır və bu nümunələri dövri şəkildə təsəvvür edirdi. Alimlər tarixçilərin məlumatlarını araşdırdıqdan sonra tarixi dəyişikliyin universal modellərinə gəlib çatmışdılar.

İbn Xəldun məşhur *"Müqəddimə" əsəri ilə* tarixin qanunlar və nümunələrini müəyyən etməyə çalışan araşdırmanın ilk təşəbbüsçüsü olmuşdur. Onun cəmiyyətin təbiəti və sosial dəyişikliklər mövzusunda apardığı araşdırması *Ümran elmini* inkişaf etdirdi. İbn Xəldunun *"əsəbiyyə"* anlayışı sülalə və dövlətlərin tərəqqisində, böyüməsində və dağılmasında tarixi dəyişikliyə səbəb olan qüvvə idi.

Toynbi dünya tarixinə sivilizasiyalar ardıcıllığı kimi nəzər salırdı. O, sivilizasiyaları dialektik çağırış və cavabın, artım və tənəzzül mərhələlərinin nəticəsi hesab edirdi. Tarixi dəyişikliyin öyrənilməsində sivilizasiyanın mahiyyətini vurğulayırdı. İbn Xəldun kimi o da sivilizasiyanın dağılması və tənəzzülü ilə bitməli sivilizasiya prosesini konseptuallaşdıran determinist idi.

Bəzi alimlər Bennabini fikirləri, ideyaları və metoduna görə "İkinci İbn Xəldun" adlandırırdılar. Tarixdə baş verən gündəlik hadisələr və sivilizasiya dövrü Bennabinin diqqətini çəkirdi. O, dövri hərəkət anlayışının mütərəqqi inkişaf şərtləri və tənəzzül faktorlarını müzakirə etməyə əsas verdiyinə inanırdı. Bennabi sivilizasiyanı tarixi araşdırma vahidi olaraq istifadə etmək üçün İbn Xəldunu ötüb keçmişdi. Toynbinin sivilizasiyanı tarixi təhlil vahidi olaraq istifadə etməsi, dövr anlayışı, çağırış və cavab formulu Bennabinin yanaşmasına da təsirsiz ötüşməmişdi.

Bennabi dövrünün ictimai-siyasi hadisələrini təhlil etmək və dinin sivilizasiya prosesindəki rolunu müzakirə etmək üçün ictimai elmlərin metodologiyasından faydalanırdı. Bennabiyə görə, müsəlman intibahını sürətləndirmək üçün sosiologiya və psixologiya lazım idi. O, dini ictimai dəyərlərin carçısı, sivilizasiyanın dinamik qarşılıqlı əlaqəyə girməsi üçün katalizator və insanı isə dəyişikliyi yaradan sivilizasiyanın əsas vahidi olaraq görürdü. Bennabi müxtəlif yanaşmalardan tarix və ictimai elmlər fəlsəfəsinin iki dominant paradiqması, üç məktəb və sivilizasiyanın öyrənilməsi fikri ilə razı deyildi.

## VII Fəsil
## **Bennabinin sivilizasiyaya dair fikirlərinin tarixi kökləri: xarici-intellektual meyar**

Metateorizasiya yanaşmasında metanəzəriyyənin dördüncü meyarı xarici-intellektual faktorlardan hesab edilən fikir, vasitə, anlayış və nəzəriyyəni əhatə edir. Xarici-intellektual meyar sivilizasiya araşdırmalarına yad elmlərin və tədqiqat sahələrinin təsirinə yönəlmişdir. Bennabiyə görə, xarici-intellektual meyar Qurani-Kərim və sünnənin, müsəlman dünyasında yer alan dini reformist düşüncənin, psixologiyanın, təbiət elmlərinin, fəlsəfənin, o cümlədən sivilizasiya və iki dominant paradiqmanın öyrənilməsində istifadə edilən digər xarici-intellektual fəaliyyətlərin təsirini ehtiva edir.

Bennabi Quran-Kərimin sosial elmlərdəki çağdaş elmi kəşf və inkişaflara əsaslanan izah və təfsirini hazırlamışdı. O, tarixi dəyişikliyin dövri konsepsiyasını izah etməyə çalışırdı. Bennabi dini düşüncənin sivilizasiya prosesindəki rolunu və tarixdəki dini prinsipinin etibarlılığını şərh etmək üçün islam dünyasının müqəddəs kitabı Quran-Kərimə də istinad edirdi. O, dinin insan şəxsiyyətini necə dəyişdirib formalaşdırdığını və sivilizasiya prosesini necə istiqamətləndirdiyini dərindən araşdırırdı.

Bennabinin tədqiqatında istifadə etdiyi şüar Qurani-Kərimin ayəsi idi: “Hər hansı bir qövm (toplum) öz tövrünü (nəfsində olanları) dəyişmədikcə (pozmadıqca) Allah da onun tövrünü (onda olanları, onun əhvalını) dəyişməz”. Bu ayə tarixi dəyişiklik və insan tövründəki dəyişiklikdə insan amilinin hökmranlığını şərh edir. Bennabi adi prosesin başlanması üçün cəmiyyətin bir fərdi dəyişərək şərti insana çevirməsinin nə qədər vacib olduğunu dilə gətirirdi.

Qurani-Kərimə əsaslanan prinsiplər insana tarixi dəyişikliyi və bu prosesdə dinin yerinə yetirdiyi vəzifəni dərk etməkdə kömək edir. Tarixi araşdırma isə Quran prinsiplərini sübut etməklə yanaşı, bizlərə empirik dəlilər verir. Bennabi bəşər sivilizasiyasında dinin aktiv rolunu inkar edən modernist düşüncəyə və ya dünyəvi ruha etiraz edirdi. O, uca yaradanın bizlərə göndərdiyi peyğəmbərlərin hədislərinə istinad edir, Qurani-Kərim və vəhyin insan sivilizasiyasının ayrılmaz hissəsi olduğunu sübut etməyə çalışırdı.

Məlum olduğu kimi, müsəlman dünyasında gerilik və tənəzzül hökm sürür. Bütün bu problemlərin həll yolunu tapması üçün “Qurani-Kərim”də qeyd olunan və İbn Xəldun tərəfindən tarixi dəyişikliyə, tarixdəki universal mətləblərə və qanunlara dair izah edilən qədim tarix nümunələrini tək-tək nəzərdən keçirməliyik. Metanəzəriyyədə Bennabinin sivilizasiyaya aid yanaşmasına təsir edən əsas xarici-intellektual faktorlardan biri də elə Quran və sünnə idi.

Müsəlman dünyasındakı reformist düşüncə islahat, yenilənmə (təcdid) və intibah fikirlərini qəbul edirdi. İslahat, təcdid və intibah XVIII əsrin ortalarında meydana gələn yeni paradiqmanı izah etmək üçün istifadə edilən kəlmələr idi. İbn Əbdülvəhhabın hərəkatı vahidlik düşüncəsinin hakim olduğu islam dünyagörüşünü canlandırmağa çalışırdı. Müsəlman dünyasında reformist düşüncənin digər müəllimi isə Əl-Əfqani idi. Əfqani istənilən canlanma və ya islahatın uğur qazanması üçün isla-

mın saf fəaliyyətlərinin zəruri olduğunu müdafiə edən eyni reformist paradiqmanın tərəfdarı idi. Bennabi bu hərəkatın əsas fikirlərini intellektual cəhətləri ilə mənimsəmişdir.

İslahatçılar Əlcəzairdə yaranan geriliyə müfəssəl perspektivdən yanaşmırdılar. Bennabi insan şəxsiyyətinin necə dəyişdirilə və inkişaf etdirilə biləcəyini öyrənmək və sistemli yanaşma əldə etmək üçün psixologiya elminə müraciət etmişdi. Onun əsas məqsədi dini fikirlərin sosial dəyərlərin sintezinə necə və nə şəkildə daxil olduğu, o cümlədən fərdin dünyagörüşünü necə inkişaf etdirdiyini anlamaq idi.

Bennabi Piagetin inkişaf psixologiyasını da daxil etməklə dinin mövqeyi və funksiyası ilə əlaqədar araşdırmalarına görə Ziqmund Freyd və Karl Qustav Yunqu təsdiqləyirdi. O yazırdı ki, dini fikir insan ruhunu instinkt qanunundan azad edir və onu ruh qanununa tabe edir. Din fərdin davranışını tənzimləyir və cəmiyyətin ümumi qanunauyğunluğuna tabe olmasına imkan verir. Freydin fikirləri Bennabiyə dinin insan şəxsiyyətinin daxilini dəyişdirməkdə və fərdlərin doğru yola istiqamətləndirilməsində yer alan psixotemporal rolunu dərk etməyə kömək etmişdi.

Sivilizasiya prosesinə rəhbərlik edən dini fikir dinamik rolunu itirdikdə cəmiyyətin sivilizasiya prosesi tənəzzülə uğrayır. Bennabi mərhələ anlayışını İbn Xəldundan örnək alsa da, cəmiyyətin psixososial tərəqqisini təhlil etmək üçün müasir inkişaf psixologiyasından istifadə etmişdir. Piagetdən ilhamlanaraq fərdin və cəmiyyətin üç tarixi mərhələdən keçdiyini deyirdi: əşyaların dövrü, insanların dövrü və ideyaların dövrü.

Fəlsəfə Bennabinin sivilizasiyaya yanaşmasına təsir edən dördüncü intellektual faktor idi. Bennabi İbn Tufeyl, Daniel Defo, İbn Rüşd və Əl-Qəzali kimi dəyərli mütəfəkkirlərdən, habelə Kartezyen düşüncəsi və müasir fikirlərdən faydalanmışdı. Bennabinin Dekartdan öyrəndiyi ən əhəmiyyətli biliklərdən biri də

analitik üsulu idi. Sivilizasiyanın struktur elementlərini və bu elementlərin sivilizasiya prosesindəki funksiyasını öyrənmək üçün iki fərqli və həmçinin bir-biri ilə sıx əlaqəli analitik mexanizmlər tətbiq edilirdi.

Bennabi sivilizasiyanı şaxəli əsas kimi qiymətləndirən nadir nəzəriyyəçilərdən biri idi. Onun töhfələri ən böyük inkişaf qaynağı, ziddiyyətli paradiqmalar üçün isə əhəmiyyətli alternativ idi. Bennabi sistem qurucusu və disiplinlərarası yanaşmanın nəzəriyyəçisi kimi şöhrət qazanmışdı.

Xarici-sosial amillər Bennabiyə sivilizasiyanı tədqiq etmək üçün ip ucu tapmağa kömək edirdi. O, Əlcəzairdəki və müsəlman dünyasındakı vəziyyətlə əlaqədar narahatlığı, cəmiyyətinin və ümmətinin üzləşdiyi müxtəlif problemlərin adekvat həlli üçün öz yanaşmasını formalaşdırmışdı. Metodoloji səviyyədə Bennabi tarixçilərin metodlarını tətbiq edirdi. İntellektual və idrak səviyyələrində isə o, sivilizasiyanın üç əsas meyarı sayılan tarixi, sosial və mədəni meyarları inteqrasiya etmişdir.

Xarici-intellektual amillərə "Quran" və sünnə, müsəlman dünyasında dini reformist düşüncə, psixologiya, təbiət elmləri, fəlsəfə və təhsil sahəsindən kənardakı digər intellektual fəaliyyətlər və iki ənənəvi dominant paradiqma aid edilir.

Bennabinin hazırladığı və inkişaf etdirdiyi sivilizasiyanın, habelə disiplinlərarası yanaşma və ideyaların, nəzəriyyələrin və tədqiqat sahələrinin formalaşdırılması və inkişafının öyrənilməsində metateorizasiya yanaşmasının mənimsənilməsinə daha çox diqqət yetirilməlidir.

## Müəllif

Bedrane Binlahsin Əlcəzairin Batna Universitetinin Fəlsəfə kafedrası və Səudiyyə Ərəbistanının Əl-Əhsa əyalətində yerləşən Kral Faysal Universitetinin İncəsənət fakültəsinin dosentidir. Binlahsin Bennabinin tədqiqatlarının araşdırılması üzrə ən yaxşı mütəxəssisdir. Bir sıra jurnallarda məqalələri dərc olunmuş və Əlcəzair, Mərakeş, Səudiyyə Ərəbistanı və Malayziyada keçirilən konfranslarda Bennabi və sivilizasiya tədqiqatları ilə bağlı məqalələr təqdim etmişdir.

website: http://drbadrane.com

**Beynəlxalq İslam Fikri İnstitutu (BİFİ)** öz oxucularına **müxtəsər nəşrlər seriyası** adı altında qiymətli kolleksiya təqdim edir. Müxtəsər məzmunda nəşr edilən kitablarda orijinaldan seçilmiş və redaktə edilmiş nümunələr öz əksini tapmışdır.

Bu kitab görkəmli əlcəzairli mütəfəkkir və böyük müsəlman ziyalısı Malik Bennabinin (1905-1973) yaradıcılığına, metodologiyası və fəlsəfəsinə həsr edilmişdir. Bennabi müxtəlif araşdırmaları nəticəsində Qərb mədəniyyətinin, sivilizasiyasının nailiyyətlərini və müsəlmanların tənəzzül səbəbləri kimi problemlərin Qurani-Kərimdə və islam inancında deyil, məhz elə müsəlmanlarda olduğu qənaətinə gəlmişdir. Alim düşünür ki, müstəmləkəlik təsirlərinin və sivilizasiyanı idarə edən amillərin əsl mənzərəsi müsəlman dünyasının problemlərini həll edə və yeni müsəlman intibahına yol aça bilərdi.

Əsər Bennabinin mədəniyyətlə əlaqəli fikirlərini və metanəzəriyyə metodologiyasından (MU) istifadə edərək tərtib olunmuş prinsipləri araşdırmaqla yanaşı, mövcud ədəbiyyatdan kənara çıxaraq Bennabinin sivilizasiyasına yanaşmasını təqdim edir və onun alt qatını təhlil edir. Bennabinin daxili, xarici və sosial-intellektual amillərin sivilizasiyanı idarə etdiyi və sivilizasiyanın özü üçün bir düstur formalaşdıra biləcəyi ilə bağlı fikirləri araşdırılır.

Malik Bennabinin düşüncələrinə uyğun olaraq din *insan+torpaq+zaman = sivilizasiya* düsturunun ən vacib katalizatoru hesab edilir və bu, müsəlmanların irəliləməsi üçün mühüm amildir. Bennabinin araşdırmalarında "insan" sivilizasiya prosesində təkcə əsas qüvvə kimi çıxış etmir, çünki digər iki ünsür onsuz heç bir əhəmiyyət daşımır. Buna görə də Bennabi müsəlmanın öz cəmiyyətini və ya sivilizasiyasını dəyişdirməzdən əvvəl öz vəziyyətini dəyişdirməli olduğuna inanır. Onun bu inancı müqəddəs Qurani-Kərimin "ər-Rəd" surəsinin 11-ci ayəsində öz təsdiqini tapır: "Hər hansı bir qövm (toplum) öz tövrünü (nəfsində olanları) dəyişmədikcə (pozmadıqca) Allah da onun tövrünü (onda olanları, onun əhvalını) dəyişməz".

Beynəlxalq İslam
Fikri İnstitutu

9 789952 844573